# *Musa Urudun şeirlər kitabı ingilis dilində*




**"Mütərcim" Nəşriyyat Evi tanınmış şair Musa Urudun şeirlər kitabını ingilis dilində çapdan buraxıb. "Sevgiyə aparan yol" (The Way To Love) adlanan kitaba şairin son illər qələmə aldığı 33 şeiri daxil edilib. Şeirləri ingilis dilinə filologiya üzrə fəlsəfə doktoru Kamran Nəzirli çevirib. Kitab ingilisdilli oxucular üçün nəzərdə tutulub. Tərcüməçi kitaba ön söz də yazıb.**

Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü Musa Urud müasir poeziyamızın istedadlı nümayəndələrindən biridir, o, həm də millət vəkilidir. Onun şeirlərinin əsas mövzusu Vətən, torpaq sevgisi, yurd həsrətidir. Bu da təsadüfi deyil. Musa Urud Qərbi Azərbaycanda, Zəngəzur qəzasının Qarakilsə rayonunun Urud kəndində anadan olub. Bu yerlərdə onun atası, anası, babaları, ulu babaları əsrlərlə yaşayıblar; ermənilər 1988-ci ildə bir milyondan çox azərbaycanlını doğma tarixi torpaqlarından qovublar. Musa Urudun ailəsi də məcburi deportasiya edilmiş ailələrdən biridir...

Ön sözdə bu məlumatlarla yanaşı, Musa Urudun Azərbaycan poeziyasında yeri və rolu barədə də əcnəbi oxuculara qısa məlumat verilir. Qeyd edilir ki, şairin şeirlərində əsas yeri həyat lövhələri və doğma yurdunun təbiət mənzərələri tutur; ənənəvi şeirin forma və metodlarına sadiq qalan Musa Urudun poeziyası yeni cərəyan və dəblərdən uzaqdır və o, sırf milli şairdir. Musa universal klassik mövzulardan yazan şair kimi həm də müasirdir, portret təsvirlərində xalqın canlı danışıq dilinə bağlıdır.

Kitaba daxil edilmiş poetik şeirlərin əksəriyyəti sərbəst vəznlidir, burda tipik yeni ədəbi nümunələr var. Bütün bunlarla yanaşı, şeirlərin açarı "bir parça Vətən torpağı"dır ki, şair bunu həyatının əsas ağrısı və sevgisi adlandırır. Şairin Vətənə, Həyata, İnsana, Dostlara, Ailəyə, Dünyaya... sevgisi poetik fikirlərlə zəngindir. "Bir parça Vətən torpağı" (A Piece of Homeland), "Mən bir tənha ağacam" (I am a Lone Tree), "Alma ağacı" (The Apple Tree), "Salam, Türkiyə!" (Hello, Turkey!), "Yol ayrıcında" (At the Crossroad), "Ölüm mələyinə məktub" (Letter to Angel of Death), "Su mələyi" (The Water-Nymph) və s. nümunələr bu qəbildəndir. İngilis dilində çap olunan bu toplu "Mütərcim" Nəşriyyat Evinin "Müasir Azərbaycan poeziyası" seriyasından olan sayca on ikinci kitabıdır.

Ədalət.-2019.-20 fevral.-S.8.